## MAŞIN

dilənçi atasının əlindən tutub
avtobusdakı basabasda yeriyən
yıxılanda atasının əlindən
sanki adamın pencəyimiş kimi
asılı qalan
ayaqları yerdən üzülən
körpə oğlanın gözü
qucağımda yatan oğlumun əlindəki
qırmızı, balaca maşına sataşdı
baxışlarındakı həsrətli qığılcımları söndürmək üçün
oğlumun oyuncağını gizlicə oğurlayıb uşağa verəcəkdim ki
maşın səs-küy qopartdı
qəribə səslər çıxartdı
musiqi çaldı
oğlum yuxudan qalxdı
dilənçi uşaq baxdı, baxdı, baxdı
atası avtobusdan düşürdəndə də onu
boynu xeyli arxada qaldı....
amma o, nə ağladı, nə də fəğan qopartdı
oyuncaq maşından yana
oğlum kimi

üzünü yerə sürtərək aldırmışdı oğlum mənə o oyuncağı
almaq istəmirdim
evdə oyuncaq maşının var demişdim
təşəkkür belə etməmişdi maşını alıb ona verərkən

o uşağın baxışları
dəldi içimi keçdi
o uşaq ürəyində nələr apardı,
nələr apardı getdi?
oğlum da atası maşın sürən
oğlan uşaqlarına eyni baxışlarla baxır
əli çatmadığı şeylərdən ötrü
əzab çəkməklə keçir hər insanın ömrü
par-par yanan mağazaların, bazarların içində...

## SEVİLƏN UŞAQ

hardansa tapıb əyninə keçirdiyi
köynəyinin üstündə
ingiliscə "sevilən uşaq "
kəlmələri yazılıb
avtobusa dilənmək üçün minən uşağın
bilmədiyi
yad dildə danışacaq
onunla dünya həmişə...



## PİŞİK KİMİ YAŞAYANLAR

*(dilənən uşağı söyüb qovan hirsli xalaya)*

qeybətə başımız qarışanda
baxdığımız seriallarda reklam araları gecikəndə
soba üstündə
unutduğumuz qazanların, tavaların dibinə yapışan yeməklərlə
bir yetimi bəsləyib böyütmək olar
amandı, yandırmayın yeməklərinizi
bir nimçədən də az tutur
yetimlərin mədələri
qapınızı çörək üçün döysələr
əllərini geri çevirməyin
qızırğalanmayın
verdiyiniz qəpik-quruşa
söyüb qovmayın dilənçiləri
hesab edin ki
bir gün də ötürmədiniz
sobanızdakı qazanı
bir gün də qeybət etmədiniz heç

"əl-ayağı salamatdı, gedib işləsin" deyə deyinməyin
bəlkə görünməyən yaraları
üzdə olmayan dərdləri vardır...
bəlkə insan olmaqdan yorulmuşlar sadəcə
bir pişik
həyatını yaşamağı seçmişlər
əllərə baxmaları
bir dilim çörəyə möhtac olmaları ondandır...
bəlkə də oğurlaya bilmədikləri üçün
qapıb qaça
çırpışdıra bilmədikləri
özlərini gözə soxmadıqları üçündü
indi pişik olub küçələrdə dolaşmaqları...
siz də insan olun azacıq
it olub tutmayın zavallıları

hələ istidə, soyuqda, yağışda, qarda
ayaqyalın, başıaçıq dilənən körpələri demirəm....
o körpələr ona görə var ki
günahlarınızın bədəlini
ən uzunmüddətli, faizsiz kreditmiş kimi
qəpik-qəpik ödəyəsiniz Tanrıya
vicdanınızı rahat edəsiniz
başınızı rahat ata biləsiniz balınca gecələri
o körpələr insan ola bilməyiniz üçün sizin şansınızdı
niyə anlamırsınız
qarınları
yandırıb qazanlarınızın dibinə yapışdırdığınız qədər
yemək tutar
artığında gözləri yox
olsaydı sizinlə başqa cür danışardılar!

## SİYAHI

adamın bir kağızı vardı
köynəklərini dəyişəndə
kirlisinin cibindən çıxarıb
təmizinin cibinə soxardı
kimsəyə sezdirmədən

şalvarının cibində unudardı hərdən
bir dəfə arvadı
əynindən indicə çıxardığı şalvarı
paltaryuyana atacaqdı
haray qopardı:
"amandı, vacib kağız var cibində"
yüyürüb qadının qolundan tutdu
qadın özünə gəlincə
kağızı qapıb aldı

bir gecə ərini yuxuya verdi
qadın kağızı ələ keçirdi
başqa qadının məktubu zənn eləyib
iylədi
bircə şeyi yəqin elədi
qadın parfümü yox
ərinin gecələr boyu
eyvanda sümürdüyü siqaret
qoxuyur kağız
əri yerindən hövlnak atılınca
kağızı qapıb əlindən alınca
səhəri dirigözlü açdı qadın
yığdı hər şeyini boğçasına
altıaylıq körpəsini aldı qucağına
"ya o məktubu oxuyacam
ya bitəcək hər şey
bəsdi küncdə-bucaqda telefonda xısınlaşmağın
bir kağızı tutub buraxmamağın!" – dedi
adam çar-naçar kağızı verdi

borclu olduğu adamların
adlarını yazdığı
uzun bir kağızıydı
göz bəbəyi kimi saxladığı

həyəcanla gözlədi
qadınının kağızdan nə anlayacağını
qorxdu ki, biləcək nə vaxtdı
xəyallarında o adların üstündən
bir-bir qara xətt çəkdiyini
həm də ən iri məbləğin üstündən
o xətti daha tez çəkməyi arzuladığını

anlar oldu
şeytana uydu
içlərindən bir adamın ölməyini
istədi
ona ən çox pul verən adamın
həm o sələm istəyənin
sonra şeytanı söyüb qovdu:
"olarmı heç
adamın nə pisliyi keçib ki, mənə? "
özünü çox danladı, çox...

bir yaxını xəstələnə
ya uzaq qohumu ölə
qızı nişanlana
oğlu evlənə
ürəyi ayağının altına düşdü
indicə qapıya dirənib
pulunu istəyəcək deyə
yenə o ən böyük məbləği verən adam
o adama nifrət etdiyinə görə
acığı tutdu özünə...



Sevinc Elsevər

bir vaxtlar xəsis deyib azarladığı
ən az borclu olduğu o adama
minnətdardı indi

siyahısından kimlərin adı çıxdı
kimlərin adı girdi unutdu
arabir bu dünyada hər kəsin
borcu olduğuna inandırdı özünü
borclu olduğu adamların da
bir başqalarına borclu olduqlarına
"borclu borclunun sağlığını istər"
ən sevdiyi atalar sözü oldu...

göz bəbəyi kimi saxladığı siyahı
köhnəldikcə
tərdən saraldıqca
tez-tez köçürdü üzünü
gedib-gəlib borclu olduğu adamların
adlarını sığalladı
başlarına sığal çəkirmiş
könüllərini alırmış kimi...

adını iri hərflərlə yazdığı bankın
müflis olmasını
ölkədən qaçmasını
istədi günlərcə
ya ağılalmaz möcüzəylə
bankın yoxsul adamlardakı pullarından
vaz keçməsinin xəyalını qurdu

sonra borca girib aldığı
borca düşüb təmir elətdirdiyi
içinə gəlin gətirdiyi evini
sevmədiyi oldu

qadın bir sürü kişi adının içində
tapmadı
aradığı qadın ismini
nə nömrə
nə ev adresi
heç bir şey

sevindi, çox sevindi:
"bilirdim, eşqim mənə xəyanət etməz,
bilirdim" – dedi...

***

hansı marketdə oyuncaq satılır
yan keçir
yanındakı uşaqla
girməkdən qorxur
"çörək satılan yerdə
oyuncağın işi nə?" - deyinir ürəyində
yolu uzanmış ya...

* * *

keçən ilki çantasına
ağır gəlir
bu ilki kitabları
təkərli çanta arzusundadı balaca
müəllimə də gedib-gəlib
təpinir uşaqların arasında
"əymə belini, düz otur" deyə...

* * *

ayaqqabısı su keçirir
amma sevir yağışı
atasına babasından qalma evin
dam örtüyü islanır
seçilmir
qonşuda sevdiyi qızın atasının
keçən yaz tikdirdiyi
ikiqatlı evin dam örtüyündən

